# Azərbaycan və Orta Dəhliz: qlobal əməkdaşlıq perspektivləri



***Qlobal miqyasda müşahidə edilən geosiyasi gərginliklər, ələlxüsus da sonu görünməyən Rusiya-Ukrayna müharibəsi bütün dünyada qarşıya yeni çağırışlar çıxarıb. Bu çağırışlar böyük coğrafiyanı əhatə edən Avrasiya regionunda nəqliyyat-logistika sahəsi üçün xüsusi aktuallıq daşıyır. İndiki gərginliklər fonunda Avrasiya məkanından keçən bir sıra marşrutlar üçün ciddi təhdidlər yaranıb. Hazırda müharibə səbəbindən Qara dənizin Ukrayna sahillərindəki limanlarda təhlükəli vəziyyət hökm sürür və əslində, onların fəaliyyəti dayanıb. Müharibənin digər tərəfi olan Rusiyadan keçən marşrutlara təhlükəsizlik nöqteyi-nəzərindən və bir sıra başqa səbəblərdən diqqət azalıb. Heç də adi olmayan bir şəraitdə Orta Dəhlizin cəlbediciliyi artıb və bu marşrut üçün yeni fürsətlər yaranıb. Sözügedən dəhliz Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi kimi də tanınır. Orta Dəhliz Şərqi Asiya ilə Qərbi Avropa arasında nəqliyyat yolu olaraq nəzərdə tutulur və bu, Azərbaycan üçün strateji əhəmiyyət daşıyan inkişaf layihəsidir.***

Orta Dəhliz adı ilə də tanınan bu marşrut Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə qədər uzanan beynəlxalq nəqliyyat dəhlizidir. O da bəllidir ki, Trans-Xəzər Avropa ilə Asiyanı birləşdirən marşrutdur və Azərbaycan onun üzərindəki əsas ölkələrdən biridir. Daha bir mühüm nüans odur ki, Trans-Xəzər marşrutu ilə Asiyadan Avropaya yalnız ticarət yükləri deyil, eyni zamanda enerji də ixrac ediləcək. Son illər isə Çin tranzit və nəqliyyat şirkətləri tərəfindən bu ölkədən Türkiyəyə və eləcə də Avropa ölkələrinə və əks-istiqamətdə yük daşımalarını nəzərdə tutan Orta Dəhlizə marağı getdikcə artmaqdadır. Bu da Azərbaycanın əhəmiyyətini daha da gücləndirir.

Orta Dəhliz layihəsində Azərbaycan ehtibarlı tərəfdaşdır və öz töhfəsini verməyə hazırdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ildə Davos Dünya İqtisadi Forumunda "Avrasiya Orta Dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasında iştirak etmişdir. Dövlət başçısı belə bir mötəbər tədbirdə inkişaf edən Azərbaycanın mövqeyini ortaya qoydu və ölkəmizin bütün beynəlxalq layihələrdə etibarlı partnyor olduğunu sübut etdi. Cənab Prezident plenar iclasda çıxışı zamanı bildirdi ki, Orta Dəhlizin üstünlüklərindən biri ondan ibarətdir ki, bu nəhəng layihədə iştirak edən ölkələr öz aralarında yaxşı münasibətlərə malikdir. İstənilən çoxmillətli təşəbbüsdə uğurun qazanılması üçün bu, ilkin şərtlərdən biridir. Azərbaycan özünün qərbində olan qonşuları Gürcüstan və Türkiyə, şərqində isə Mərkəzi Asiya ilə gözəl münasibətlərə malikdir. Qərb və Şərq arasında təbii coğrafi bağlantıya malik olduğumuz üçün biz ötən illər ərzində nəqliyyat infrastrukturuna böyük sərmaya yatırmışıq.

Orta Dəhliz multimodal marşrut olduğundan Qərbin hesablamalarına görə, onun ümumi uzunluğu təxminən 5000 kilometrdir, o cümlədən təxminən 4250 kilometr dəmir yolu xətti və 500 kilometr dəniz nəqliyyatını əhatə edir. Qazaxıstanda Trans-Xəzər marşrutu çox vaxt daha uzun - 11 min kilometrə qədər qiymətləndirilir. Çünki Çinin şərq sərhədlərindən başlayan məsafə də hesablamaya daxil edilib ki, bu da marşrutun ümumi uzunluğunu xeyli artırır. Beləliklə, bu marşrut Cənub-Şərqi Asiya ilə Avropa arasında əsas nəqliyyat dəhlizinə çevrilmək potensialına malikdir. Bu mənada Avrasiyadakı geosiyasi dəyişikliklər alternativ təchizat zəncirlərinin inkişafına təkan verir.

**(davamı 4-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)




Azərbaycanda bütün zəruri infrastruktur obyektləri daha çox yük qəbul etməyə hazırdır. Yükaşırma qabiliyyəti 15 milyon ton olan dəniz limanımız 25 milyon tona qədər genişlənəcək və artıq bunun üçün vəsait ayrılıb. Mərkəzi Asiyadan böyük həcmdə yükün istiqamətinin dəyişilməsi müşahidə olunur. Zəruri əməkdaşlıq istiqamətini əsas hesab edən İlham Əliyev vurğuladı ki, "Vahid pəncərə" sistemini tətbiq etmək məqsədilə gömrük inzibatçılığı və tarif siyasəti üzərində daha da fəal işləmək üçün bütün iştirakçı ölkələr arasında, Mərkəzi Asiya, Qafqaz və Avropa arasında daha da sıx əməkdaşlıq aparılmalıdır.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu layihəsi hələ də formalaşma mərhələsindədir və əhəmiyyətli investisiyalar gözləyir. Qərb mənbələri tez-tez Orta Dəhlizə Qədim İpək yolunu təkrar edən və quru tranzit yollarını özündə birləşdirən Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün bir hissəsi kimi baxırlar. Layihə həm də 1990-cı illərdə məşhur olan TRACECA təşəbbüsünə əsaslanır. Ümumiyyətlə, bu, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə, eləcə də Qara və Xəzər dənizləri vasitəsilə Çin və Avropa arasında tranzit marşrutu hesab olunur. Bununla belə, alternativ marşrutlar da mümkündür, o cümlədən Mərkəzi Asiya ölkələri - Qırğızıstan, Özbəkistan və Türkmənistan vasitəsilə ola bilər.

Bu gün ölkəmiz bütün önəmli regional və qlobal güclərlə konstruktiv əlaqələr formalaşdırır. Bu konteksdə Çin xüsusi yer tutur. Azərbaycan Çin üçün, Çin də Azərbaycan üçün çox önəmli tərəfdaş olduğunu ikitərəfli istiqamətdə atılan bütün addımlarla sübut edir. Coğrafi baxımdan biri-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, ölkəmiz dünyanın ikinci böyük iqtisadiyyatına, qlobal münasibətlərdə böyük çəkiyə və nüfuza malik bu dövlətlə demək olar ki, bütün istiqamətlərdə sıx əlaqələrə malikdir. Ötən il Astanada keçirilən ŞƏT-in növbəti Zirvə toplantısı Azərbaycan-Çin münasibətləri baxımından əlamətdar oldu. Belə ki, sammit çərçivəsində Prezident İlham Əliyevin Çin lideri Si Cinpin ilə görüşü Azərbaycan-Çin əməkdaşlığının genişlənməsi, dərinləşməsi və intensivləşməsi ilə yadda qaldı. Azərbaycan və Çin liderləri strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə qəbul etməklə münasibətləri tamamilə yeni səviyyəyə yüksəldib: "Azərbaycan-Çin münasibətlərinin zirvəsi olan Bəyannamə müasir İpək Yolu qurşağında enerji tərəfdaşlığının inkişafı üçün geniş imkanlar açır. Bir-birini prioritet, etibarlı və strateji tərəfdaş hesab edən ölkələrimizin neft-qaz hasilatı, emalı, "yaşıl enerji" sahələrində əməkdaşlığını dərinləşdirən yol xəritəsi müəyyənləşdirir. "Yaşıl enerji" üzrə böyük imkanları və təcrübəni birləşdirən Azərbaycan-Çin tərəfdaşlığı "Kəmər və Yol", davamlı inkişaf, qlobal iqlim və enerji çağırışlarına cavab vermək istiqamətlərində mühüm əhəmiyyət daşıyır.

"Bir kəmər, bir yol" layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırılıb. Çinin irəli sürdüyü "Kəmər və Yol təşəbbüsünü" ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub. Bu kontekstdə "Orta Dəhliz" layihəsi Mərkəzi Asiya və Azərbaycandan keçməklə çox perspektivi olan bir layihəyə çevrilir. Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol Bakı-Tbilisi-Qars dəmir yolu həmin dəhlizin mühüm tərkib hissəsidir. Bu yolla Avropa Anadolu və Cənubi Qafqaz vasitəsilə Mərkəzi Asiya, Uzaq Şərq və Cənubi Asiya ilə birləşməsi ilə yanaşı, Çindən göndərilən yüklərin Türkiyə vasitəsilə Qərbi Avropa ölkələrinə çatdırılması isə ümumilikdə cəmi 18 günə başa çatır.

Orta Dəhliz marşrutlarından istifadənin intensivləşdirilməsi, Azərbaycan, Gürcüstan və Türkiyə tərəfindən bir neçə il əvvəl reallaşdırılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolundan istifadəni artırmağı vəd edir. Bakı, Aktau, Türkmənbaşı, Samsun, Poti və Batumi kimi müasir infrastruktura malik Xəzər və Qara dəniz limanlarının mövcudluğu Azərbaycanda beynəlxalq yükdaşımalarını artırmağa imkan verən mühüm elementlərdir. Yaranmış yeni situasiya Orta Dəhliz regionunda yerləşən ölkələrə öz aralarında əməkdaşlığı inkişaf etdirmək və nəqliyyat siyasətlərini koordinasiya etmək zərurətini diktə edir. Bu baxımdan heç də təsadüfi deyil ki, region ölkələri arasında, xüsusən Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında son iki ildə ali səviyyədə diplomatik səfərlər intensivləşib. Bu səfərlər zamanı əsas müzakirə olunan mövzulardan biri məhz Orta Dəhliz çərçivəsində qarşılıqlı fəaliyyət məsələləridir. Ötən il mart ayında Qazaxıstan Prezidenti Tokayev ilə Bakıda keçirilən ikitərəfli görüşdən sonra mətbuata bəyanatla çıxış edərkən Prezident İlham Əliyevin fikirləri də bunu təsdiq edir: "Trans-Xəzər nəqliyyat dəhlizinin artıq reallığa çevrilməsi, onun özlüyündə böyük dərəcədə regional əməkdaşlığın səviyyəsini müəyyən etməsinin rəmzlərindən biridir, çünki qonşularla yaxşı münasibət olmadan tranzit ölkə olmaq mümkün deyil. Belə olan halda həm Qazaxıstan, həm də Azərbaycan bu istiqamətdə regional əməkdaşlığa, qonşularla münasibətlərin möhkəmləndirilməsinə sadiqliyini nümayiş etdirir".

Qeyd edək ki, 25 noyabr 2022-ci ildə Aktauda Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə Orta Dəhliz marşrutunun inkişafı və istismarına dair "2022-2027-ci illər Yol Xəritəsi" imzalayıb. Yol xəritəsinə əsasən hər bir ölkə öz nəqliyyat infrastrukturunu sinxron şəkildə inkişaf etdirmək üçün tədbirlər görməyi razılaşdırıb. Azərbaycan, Qazaxıstan və Özbəkistan "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair saziş bağlayıb. Saziş üç ölkənin enerji sektorunda əməkdaşlığının yeni strateji çərçivəsini müəyyən etmək məqsədilə hazırlanıb. Sənədin əsas məqsədi Paris İqlim Sazişində nəzərdə tutulmuş istixana qazı emissiyalarının azaldılması hədəflərinə uyğun olaraq "yaşıl enerji"nin inkişafını təşviq etməkdir. Bu çərçivədə tərəflər bərpaolunan enerji mənbələrinin istehsalı, ötürülməsi və ticarəti sahəsində qarşılıqlı əməkdaşlıq edəcək, "yaşıl hidrogen" və "yaşıl ammonyak" texnologiyalarının tətbiqini dəstəkləyəcək. Həmçinin layihə Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının enerji sistemlərinin inteqrasiyasını gücləndirərək, bərpaolunan enerjinin Avropaya və digər bazarlara ixracını asanlaşdıracaq. Bu əməkdaşlıq, həmçinin Orta Dəhlizin inkişafına və Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə inteqrasiyasının dərinləşməsinə töhfə verəcək.

Prezident İlham Əliyev bu il yanvarın 20-də Davosda Çinin CGTN telekanalına verdiyi müsahibədə ölkəmizin beynəlxalq arenadakı strateji rolunu və iqtisadi inkişaf yönündə atılan mühüm addımları ətraflı şərh edib. Müsahibədə dövlətimizin başçısı ölkəmizin qlobal və regional layihələrə verdiyi töhfələri xüsusi vurğulayıb. Azərbaycanın Orta Dəhlizlə bağlı siyasəti iqtisadiyyatın diversifikasiyası və yerli istehsalın artırılması məqsədi daşıyır. Ölkəmiz Orta Dəhliz vasitəsilə Asiya və Avropa arasında mühüm ticarət qovşağına çevrilib, bu layihə yeni iş yerlərinin yaranmasını və regional inkişafı təmin edəcək. Nəticədə, ölkəmiz yalnız tranzit xərcləri ilə deyil, həm də yüksək əlavə dəyər yaradan layihələrlə iqtisadiyyatını gücləndirəcək. Bu yanaşma, həmçinin Azərbaycanı qlobal logistika və ticarət şəbəkələrində mühüm aktora çevirir.



**Mustafa KAMAL,**
**"Respublika".**